# Dul qadına və kasıba əl tutan şəxs, Allah yolunda cihad edən və ya gecələri yorulmadan namaz qılıb, gündüzləri oruc tutan şəxs kimidir”

Əbu Hureyradan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: Dul qadına və kasıba əl tutan şəxs, Allah yolunda cihad edən və ya gecələri yorulmadan namaz qılıb, gündüzləri oruc tutan şəxs kimidir”.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurur ki, əri vəfat etmiş və heç kimdən maddi dəstəyi olmayan bir qadına, həmçinin maddi ehtiyacları olan insanlara yardım edən və savabını uca Allahdan umaraq onlara xərcləyən kəs, Allah yolunda cihad edən və ya yorulmadan gecə namazlarını qılan, oruc tutub iftarını açmayan şəxs kimi savab sahibidir.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee